Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rekord istilər vaxtı Avropada 10 mindən çox insan ölüb

indicə



Berlin, 28 iyun, 2026-cı il

Rəsmi məlumatlara əsasən, iyunun sonlarında Qərbi Avropanı bürüyən rekord istilik dalğası zamanı Avropa ölkələrində 10 mindən çox əlavə ölüm qeydə alınıb.

EuroMOMO şəbəkəsinin məlumatlarına görə, ölənlərin 9 mindən çoxunun yaşı 65 və yuxarı olub. Bu şəbəkəni Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti üzrə Avropa Mərkəzi (ECDC) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dəstəkləyir.

Aşırı istilik ölümə səbəb ola, ürək-damar və tənəffüs sistemi xəstəliklərini ağırlaşdıra bilər. Yaşlı insanlar bu baxımdan ən həssas qruplardan sayılır.

**"İlin bu dövründə belə yüksək əlavə ölüm hallarının qeydə alınması qeyri-adidir. Bu, gerçəkdən çox yüksək göstəricidir. Bu qədər yüksək əlavə ölüm hallarını ekstremal istidən başqa hər hansı amillə izah etmək çətindir",** – bunu “Reuters”ə Danimarkanın “Statens Serum” İnstitutunun baş həkimi və EuroMOMO layihəsinin rəhbərlərindən biri **Lasse Vesterqard** deyib.

Alimlərə görə, iyunun sonundakı istilik dalğası insan fəaliyyətinin doğurduğu iqlim dəyişikliyi olmasaydı, "praktiki mümkün olmazdı". Onların fikrincə, qlobal istiləşmədən dolayı istilik dalğaları daha tez-tez və daha güclü baş verir.

Statistikaya istilik dalğasının Fransa, İspaniya, Böyük Britaniya və digər ölkələrdə pik həddə çatdığı 22-28 iyun həftəsi daxildir. İyunun sonundakı ekstremal istilər elektrik enerjisi təchizatında fasilələrə, məktəblərin bağlanmasına səbəb olub, Fransa, İspaniya ilə Böyük Britaniyada temperaturda yeni rekordlar qeydə alınıb.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur